Ey Abbas, ey Allah Rəsulunun əmisi, Allahdan dünya və axirətdə salamatlıq istə

Abbas bin Əbdul-Muttalibdən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Dedim: Ey Allahın Rəsulu, mənə elə bir şey öyrət ki, onu izzət və cəlal sahibi olan Allahdan istəyim. Dedi: “Allahdan salamatlıq istə!” Mən bir neçə gün gözlədim, sonra yenə gəlib dedim: “Ey Allahın Rəsulu, mənə elə bir şey öyrət ki, onu Allahdan istəyim. Mənə dedi: "Ey Abbas, ey Allah Rəsulunun əmisi, Allahdan dünya və axirətdə salamatlıq istə"

[Başqasıyla səhih olan] [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) əmisi, Abbas bin Əbdul-Muttalib (Allah ondan razı olsun) Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) ona, Allaha edəcəyi bir dua öyrətməyini istəyir. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) da ona Allahdan dində, dünyada və axirətdə, bəla və eyiblərdən salamatlıq və afiyət diləməyini öyrətdi. Abbas dedi: Bir neçə gündən sonra yenidən ondan Allaha edəcəyim bir dua öyrətməsi üçün yanına qayıtdım. O, isə əmisinə sevgiylə bu sözləri söylədi: Ey Abbas, ey Allahın Elçisinin əmisi, dünya və axirətdə bütün zərərləri uzaqlaşdırmaq və bütün xeyir və faydanı əldə etmək üçün Allahdan afiyət istə.

http://sunnah.global/hadeeth/az/show/2932